## ŞƏRQŞÜNASLIQ

**UOT 821 (091)**

# FORUĞ FƏRRUXZADIN ÖMÜR YOLU

**C. N. MƏMMƏDZADƏ**
***Bakı Dövlət Universiteti***
***mhjavanshir @ mail.ru***

*Müasir fars ədəbiyyatının ən ünlü siması Foruğ Fərruxzad (1935- 1967) Tehran şəhərində hərbçi ailəsində anadan olmuşdur. İbtidai təhsilini "Soruş", orta təhsilini isə "Xosrov-e xavər" məktəblərində almışdır. 1951-ci ildə "Kəmalülmülk" adlı incəsənət məktəbində rəssamlıq və dərzilik sənətinin incəliklərinə yiyələnmişdir. 1950-ci illərdən ədəbi fəaliyyətlə peşəkarcasına məşğul olmağa başlamış və 1959-cu ildən "Gülüstan film" şirkətində aktyor, rejissor yardımçısı, rejissor vəzifələrində çalışmış, bir sıra filmlərin səsləndirilməsində yaxından iştirak etmişdir. İngiltərə, Almaniya, İtaliya, Fransa və İsveçrəyə işgüzar səfərlər etmişdir. Fransız, ingilis, alman və italyan dillərini bilən Foruğ bir tərcüməçi kimi də öz istedadını nümayiş etdirə bilmişdir.*

**Açar sözlər:** ailə, təhsil, şeir, kino, Avropa

Foruğ Fərruxzad 05 yanvar 1935-ci ildə Tehran şəhərinin məşhur Əmiriyyə (indiki Vəliəsr) küçəsində yerləşən qədim məhəllələrin birində hərbçi ailəsində dünyaya göz açmışdır. Atası polkovnik Məhəmməd Fərruxzad Rza şah ordusunda zabit, anası Bətul Vəziri Təbar isə ömrünü övladlarının təlim-tərbiyəsinə həsr etmiş, gündəlik məişət qayğıları ilə yaşayan evdar bir qadın idi. Əslən İranın Təfriş vilayətindən olan Məhəmməd Fərruxzad böyük ailə sahibi idi. Orta səviyyəli həmin hərbçi ailəsində yeddi uşaq dünyaya göz açmışdı. Foruğun Əmir Məsud, Mehrdad, Mehran, Feridun adlı dörd qardaşı, Puran və Gəluroya adlı iki bacısı vardı. Foruğ evin yeddi uşağı arasında üçüncü və ailənin ilk qız övladı, sevimli bacısı Purandan sonra ikinci qız uşağı idi.

Foruğun anadan olmasından təqribən bir müddət sonra atası Məhəmməd Fərruxzad Rza şahın Mazandarandakı mülkünün idarə rəisi vəzifəsinə təyin olunur. Atası yeni işi ilə əlaqədar olaraq Tehranı tərk etmək məcburiyyətində qalır və ailəsi ilə birlikdə Nouşəhrə köçür. O zaman hələ çox balaca olan Foruğ

elə ilk addımlarını yerə burada yenicə basırdı. Fərruxzadlar ailəsi bu şəhərdə qaldığı müddətdə o, səhərdən axşama qədər füsunkar təbiətin qoynunda gəlincik və uşaq oyuncaqları ilə oynayır, həmyaşıdları ilə atılıb-düşürdü. 1940-cı ildə Fərruxzadlar ailəsi yenidən Tehrana qayıdır. Onlar həmin qədim məhəllədəki köhnə evlərində məskunlaşırlar. Çox şıltaq, bir yerdə qərar tuta bilməyən, hər bir şeylə maraqlanaraq özünün çoxsaylı suallarına cavab axtaran Foruğun bu zaman beş yaşı vardı. Həmin vaxt atası onu evlərinin yaxınlığında yerləşən "Jalə" uşaq bağçasına qoyur. Balaca Foruğ ilk dəfə şeir və nağılla burada tanış olur. O, digər həmyaşıdlarından fərqli olaraq şeir və nağıl dinləməyə daha böyük həvəs göstərir, onları əzbərləməyə çalışırdı. Tez-tez qoca babasının dizinin dibində dinməz-söyləməz oturaraq, saatlarla onun söylədiyi maraqlı və düşündürücü nağıllara, şirin və könüloxşayan fars təranələrinə qulaq asmaqdan doymazdı. Mövzusu xalqın həyat bulağından qaynaqlanmış, onun həyat fəlsəfəsi üzərində köklənmiş həmin örnəkləri dinlədikcə Foruğun uşaq qəlbi riqqətə gələrdi. Kiçik yaşlarından eşitdiyi, lakin hələ yetərincə fərqinə varmadığı şeirlər, təranələr, nağıllar Foruğu özünə cəlb etmiş, onun qəlbinə məhəbbət toxumları səpərək, ədəbiyyata qarşı həvəs və yanğısını daha da artırmış, ilhamını qanadlandırmışdır. Həmin maraq onun bədii zövqünü oxşamış, getdikcə düşüncələr sözlərin "donunda" saf duyğuların, sevinc və nisgilin ifadəsinə çevrilməyə başlamışdı. Atası Məhəmməd Fərruxzad da hərbçi olmasına baxmayaraq, şeiriyyatın vurğunu idi. Rus və fransız dillərini yaxşı bilən Məhəmməd Fərruxzad evin böyük kitabxanasında saatlarla mütaliə etməyi çox sevirdi. O, dörd kitab yazmışdı. Həmin kitabların ən məhşuru
("Kiçik əsgər") adlanırdı.

Artıq məktəb yaşına çatmış Foruğ ibtidai təhsilini Tehranın Bollursazi küçəsində yerləşən "Soruş" məktəbində alır. Məktəb adlı yeni bir dünyaya qədəm qoyan Foruğun sevinci yerə-göyə sığmırdı. İbtidai təhsilini bitirdikdən sonra orta təhsilini "Xosrov-e xavər" məktəbində davam etdirir. O, orta təhsilini sona qədər davam etdirə bilmir. 1949-cu ildə orta təhsilin üç ilini başa vuraraq, 1951-ci ildə "Kəmalülmülk" adlı incəsənət məktəbinə daxil olur. Foruğ burada peşə təhsili alaraq, rəssamlıq və dərzilik sənətinin incəliklərinə yiyələnir. Rəssamlığa daha böyük həvəsi olduğundan bir müddət məşhur rəssam Əli Əsğər Potgərin yanında şagirdlik edir.

Bu dövrdə Foruğun həyatında təəssüfdoğuracaq qədər əlamətdar bir hadisə baş verir. Sonralar fələyin min bir oyunu ilə qarşılaşdıqda şeirlərində böyük həsrət, yanğı və təəssüflə xatırladığı, həyatının ən gözəl, vəfalı, unudulmaz günləri kimi vəsf etdiyi, artıq onun üçün əlçatmaz olan o "sehrli aləmin" cazibəsindən hələ tam azad olmayan Foruğ gözlənilmədən on altı yaşında ikən öz qohumu, anasının xalası nəvəsi Pərviz Şapurla ailə həyatı qurur. Onların ilk tanışlığı elə Foruğun ailəsindən başlamışdı. Qonşuluqda yaşayan Pərviz Şapur o zaman Foruğgilə çox gedib gələrdi. Ailədə uşaqların sevimlisinə çevrilmiş Pərviz Şapur hər gəlişində onları ətrafına toplayıb maraqlı söhbətləri və məzəli əhvalatları ilə onların rəğbətini qazanmışdı. Foruğ da digər uşaqlar kimi Pər-

vizin qurduğu məclisdən kənarda qalmayaraq, onun söylədiklərinə böyük həvəslə qulaq asırdı. Pərviz Şapurun davranışı getdikcə Foruğun diqqətini özünə daha çox cəlb etmiş və onlar arasında sevginin yaranmasına səbəb olmuşdu. Sonradan onların bir-birinə dəlicəsinə aşiq olduğunu bildikdə hamı çox heyrətlənir. Pərviz artıq universiteti bitirmiş, Foruğ isə orta təhsilini hələ tam surətdə başa vurmamışdı. Pərviz Şapur ondan on bir yaş böyük idi. O, 1924-cü ilin fevral ayında anadan olmuş, 2000-ci ilin avqustunda 76 yaşında ikən vəfat etmişdir (6, 27).

Pərviz tez-tez Foruğ ilə birlikdə Tehranı gəzintiyə çıxır, kinoya gedir, zəngləşir və məktublaşırdı. Həmin xoş anlar onları bir-birinə mənən daha çox yaxınlaşdırır və xoşbəxt gələcəyə ümidlərini qanadlandırırdı. Pərvizin şirin söhbətləri, səmimi münasibəti Foruğun ona qarşı olan məhəbbətini günbəgün daha da artırırdı. O, hər gün böyük həvəs və ümidlə, çox zaman isə acı göz yaşları içərisində qaranlıq bir otağın küncündə Pərvizə məktub yazır və intizarla onun cavabını gözləyirdi. Foruğun bütün məktubları "Mənim Pərvizim", "Pərviz, sevgilim" sözləri ilə başlayır və "Sənin Foruğun", "Səni öpürəm", "Sənin səadətini Allahdan diləyirəm" kimi xoş və ümidverici sözlərlə bitirdi. Pərviz Şapur da öz məktublarında Foruğu çox sevdiyini, böyük ümidlərlə yaşadığını bildirir və çətin anlarda ona öyüd-nəsihət verirdi. O, öz məktublarında Foruğa "Foruğum" deyə müraciət edirdi. Bu isə onun çox xoşuna gəlirdi. Pərviz bəzən məktubların sonunda Foruğa qarşı öz sevgisini izhar etmək üçün bilməcələrdən istifadə edirdi. Foruğ isə çox zaman həmin bilməcələri çözə bilmirdi. Çözdükdə isə, Pərvizə eyni məzmunlu bilməcələrlə cavab yazırdı. Ata-anasının onu başa düşməməsi, onun xahiş və qərarına etinasız yanaşması, ailə üzvlərinin onunla pis davranışı, yersiz sözlər eşitməsi və qoyulan qadağalar Foruğa həddindən artıq əzab verirdi. Hər gün dörd divar arxasında təklikdə hey düşünür, boş vaxtlarında isə daha çox nə isə oxuyur, cızma-qara edir və məktub yazırdı.

Foruğ İran cəmiyyətinin, o cümlədən ailəsinin insanların bir-birinə qovuşmasını, xoşbəxtliyini əngəlləyən, artıq köhnəlmiş nigah adət-ənənəsinə qarşı çıxır. Foruğa görə, " ... həqiqətən sevən bir şəxs sevgilisinə qovuşmaq üçün yalnız mal, məzhəb, məram, əqidə, iman və ailəsindən keçməklə kifayətlənməz, bəlkə canını da istəsələr pulsuz verər" (6, 91). O, sevgi məsələsində maddiyyatın mənəviyyatdan üstün tutulması ilə heç bir vəchlə razılaşa bilmir. Foruğ sevgisinin, gələcək xoşbəxtlik və səadətinin maddiyyatla ölçülməsi ilə heç cürə barışa bilmir. Onun üçün ailə qurarkən təqdim olunası hər hansı bir sənəd, ödənməli olan mehriyyə heç bir dəyərə malik deyildi. Foruğ üçün əsas onun gələcək həyat yoldaşının ictimai mövqeyi yox, öz sözləri ilə desək, "onun ruhu, onun əxlaqı, onun alicənablığı və heysiyyatı, onun mənəviyyatının yüksəkliyi və düşüncəsinin müstəqilliyidir" (6,110).

Foruğ Fərruxzad "eşq fəsli" olan baharda, 1951-ci ilin mart ayında ailə həyatı qurur. Onun toy mərasimi çox sadə və təmtəraqsız keçir. Hətta, Pərviz Şapur Foruğa gəlinlik paltarı ala bilmədiyindən, o, gəlinlik paltarını özü tikir.

Toydan sonra onlar birlikdə ölkənin cənubuna, Əhvaz şəhərinə yollanırlar. Pərviz Şapur Əhvazda maliyyə idarəsində çalışır, Foruğ isə evdarlıqla məşğul olurdu. Evdə tək qaldığı zaman daha çox mütaliə edir, şeir yazırdı. Doğma Tehrandan uzaq, gecələri çıraqban, gündüzləri isə həddən artıq isti olan bu cənub torpağında Foruğun həyatı başqa bir məzmun kəsb etmişdi. O, tez-tez ailəsi ilə məktublaşır, onların vəziyyəti ilə maraqlanır və özü barəsində yazırdı. Bu minvalla bir il ötür. 1952-ci ilin iyun ayında Foruğ Fərruxzadla Pərviz Şapurun izdivacından bir oğlan uşağı dünyaya gəlir. Körpənin adını valideynləri Kamyar qoyur. Foruğ ona "Kami" deyə xitab edərdi.

1953-cü ildə Foruğ oğlu Kamyar ilə birlikdə Tehrana, ata evinə qayıdır. Əhvazda qalan Pərviz Şapur bir müddət sonra işləmək üçün Abadana gedir. O, ailəsinin maddi ehtiyaclarını və borclarını ödəmək üçün hər bir zəhmətə qatlaşmaq məcburiyyətində qalır. Öz həyat yoldaşına dəstək olmaq istəyən Foruğ onunla çiyin-çiyinə Əhvazda çalışmaq qərarına gəlir. Pərviz isə Foruğun bu təklifi ilə razılaşmır, onun Tehranda qalmasını məqsədəuyğun sayır.

Foruğun az müddətdən sonra Tehrana geri dönməsi ailəsi tərəfindən birmənalı qarşılanmadı. Onun uzun müddət ata evində yaşaması, Pərviz Şapurun isə hələ də geri qayıtmaması onun üçün əsl başağrısına çevrilmişdi. O, bir vaxtlar ata-anasının tam razılığı olmadan Pərviz Şapurla evliliyə can atdığına və hal-hazırda düşdüyü duruma görə hər gün valideynləri tərəfindən danlanır, təhqir olunurdu. Onun isə pənah gətirdiyi ocaqda danlaqları qəbul etməkdən və məzəmmətli sözləri eşitməkdən başqa bir əlacı yox idi. Digər tərəfdən, gənc və tənha bir qadının qucağında azyaşlı körpə ilə ata evinə qayıdışı ətrafda onun barəsində xoşagəlməz söz-söhbətlərin və yersiz dedi-qoduların meydana gəlməsinə səbəb olmuşdu. O, bütün bu hadisələrdən çox narahat olur, iztirab keçirir, özünü qəbahətli baxışların, istehzalı gülüşlərin və kinayəli sözlərin əhatəsində hiss edirdi.

Foruğ bu dövrdə tənhalıq anlarını müxtəlif kitabları mütaliə etməklə, daha çox isə şeir yazmaqla doldururdu. Artıq bu zamandan etibarən, o, şeiriyyata daha çox bağlanır. Şeir onun həmdəminə, başqa sözlə desək, maraq obyektinə çevrilir. Pərvizsiz şeirli dəqiqələrinin sayı günbəgün getdikcə artır. O, valideynlərinin məzəmmətindən, yoldaşının biganəliyindən, ətrafında dolaşan əsassız söhbətlərin əlindən şeirə pənah aparır, yaxşını-pisi, sevinci-kədəri, dostu-düşməni şeirli aləmdə axtarırdı. Şeir onun üçün həyatın sınaqlarından alnıaçıq çıxmaq, həyatın ona ünvanladığı sualları dolğun və ətraflı cavablandırmaq üçün yeganə vasitə idi. Şeir ağır dərdləri sarımaq üçün bir məlhəm idi.

Tehranda qaldığı müddətdə Foruğ durmadan çoxlu şeirlər yazırdı. O, yazdığı çağırış məzmunlu şeirləri çap olunmaq üçün müxtəlif jurnalların redaksiyasına yollayırdı. Artıq İran oxucusu dövri mətbuatda gənc şairə Foruğ Fərruxzadın adı ilə tez-tez rastlaşırdı. Onun şeirləri tezliklə Tehran ictimaiyyətinin diqqətini özünə cəlb etdi və qısa müddətdə böyük şöhrət qazandı. Foruğun şeirləri ədəbi dairələrdə maraqla qarşılanır və tənqid mövzusuna çevrilirdi.

Hamı onunla yaxından tanış olmağa çalışırdı. Bu səbəbdən də Tehranda bir sıra nüfuzlu ədəbi dərnəklər onu böyük həvəslə öz məclislərinə dəvət edirdilər. Pərviz Şapur Foruğun həmin ədəbi dərnəklərlə əlaqə saxlamağına razılıq vermədiyindən, o da müəyyən bəhanələrlə ədəbi məclislərə getməkdən, bir sıra görüş və dəvətlərdən imtina edirdi. Buna baxmayaraq, o, yazdığı şeirlərin oxucular və Tehran ədəbi mühiti tərəfindən böyük alqışlarla qarşılanmasına həddən artıq sevinirdi. Bu hadisə acı göz yaşları içərisində onun hıçqırtılı gülüşü idi. Foruğun şeir yazması və şeirlərinin tez-tez ədəbi orqanlarda nəşr olunması öz yaxınları tərəfindən xoş qarşılanmırdı. Pərviz Şapur isə onun şeir deməsinə müxalif olmasa da, bəzi məsələlərdən ehtiyat etdiyindən ona tam surətdə razılıq da verə bilmirdi.

Foruğ Fərruxzad "Əsir" adlı ilk şeirlər məcmuəsini hazırlayıb çapa təqdim edir. Həmin məcmuə 1953-cü ilin yayında işıq üzü görür. Kitabın çap olunması və tezliklə yayılması İran cəmiyyətində böyük əks-səda doğurur. Tehranın bütün ədəbi dairələri "Əsir"dən və onun müəllifindən danışırdı. "Əsir" məcmuəsindəki şeirlərin bəzisində intim duyğuların ifadəsi, onların qeyri-etik, əxlaq normalarına zidd səslənməsi, ən başlıcası isə, həmin şeirlərin gənc bir qadın tərəfindən söylənməsi gözlənilmədən Tehran cəmiyyətini hərəkətə gətirir və böyük hay-küyə səbəb olur. Toplunun nəşrindən sonra Foruğ haqqında müxtəlif xoşagəlməz şayiələr dolaşmağa başlayır, əsassız dedi-qodular isə səngimək bilmir. Buna səbəb məcmuədəki bir sıra şeirlərin açıq-saçıq, intim mövzulu olması idi. Bəzi nanəcib insanlar yalnış olaraq həmin məzmunlu şeirlərin bilavasitə şairənin şəxsi həyatı ilə bağlı olduğunu iddia edirdilər. Bu isə onun barəsində nalayiq və yaraşmaz söz-söhbətlərin yayılmasına rəvac verirdi. Buna görə də gənc şairə bir müddət inzivaya çəkilir, ictimaiyyətin gözünə görünməkdən yayınır və heç kiminlə ünsiyyət saxlamır. Gənc şairə haqqında gəzən xoşagəlməz dedi-qodulardan xəbərdar olan Fərruxzadlar ailəsi çox məyus olur. Foruğun ətrafında dolaşan şayiələr Pərviz Şapurdan da yan keçmir. O, da öz həyat yoldaşı barəsində əsassız olsa belə, deyilənləri eşitdikdə çox mütəəssir olur. Çıxılmaz vəziyyətdə qalan Pərviz Şapur, digər tərəfdən öz yaxınlarının tənəsi ilə üzləşir.

Artıq Foruğun həyatında daxilən və ruhən bütün varlığı ilə tələb etdiyi şeir çox sevdiyi Pərvizin rəqibinə çevrilmiş və get-gedə onun yerini almışdı. İndi o, seçim qarşısında idi; ikisindən birini, ya həmdəmi olan şeiri, ya da ki, yolunda min bir cəfaya qatlaşdığı ailə həyatını seçməli idi. O, heç şübhəsiz, həm şeiri, həm də ailəsini bir arada tutmaq istəyirdi. Əfsuslar olsun ki, mövcud ictimai qanunlar, adət-ənənə buna heç cürə imkan vermirdi. Bu cəhətdən onun üçün seçim çox çətin, alınacaq nəticə isə qeyri- müəyyən idi.

Ailə həyatına qədəm basarkən sevinci yerə-göyə sığmayan Foruğ Fərruxzadın evliliyi uzun sürmür. Yersiz söz-söhbətlər, əsassız şayiələr, xoşagəlməz dedi-qodular gənc bir ailənin təməl daşlarını tərpədir və tərəflər arasında ixtilafın yaranmasına səbəb olur. Bir-birlərini dəlicəsinə sevən Foruğ Fərruxzad və Pərviz Şapur istəməsələr də, ayrılmaq məcburiyyəti qarşısında qalırlar. Hətta

körpə Kamyarın varlığı belə onlar arasında məhəbbət zəncirinin qırılmasına mane ola bilmir. 1955-ci ilin noyabr ayında Foruğ bir vaxtlar ailəsinin onun nigahına etirazına baxmayaraq, dərin məhəbbət, ümid və xəyallarla pərvazlandığı yuvasını öz diləklərini qəlbində boğaraq tərk edir, iztiraba və məhrumiyyətlərə həmişəlik "əlvida" deyərək, sualdolu baxışlarla Pərviz Şapurdan ayrılır. O, öz rəngsiz taleyi ilə barışaraq yazırdı: "Pərviz, mənim taleyim sənin taleyindən ayrıdır. Elə bil, məni bədbəxtlik və əziyyətə qatlaşmaq üçün yaratmışlar" (6,179).

Foruğ həyat yoldaşından boşananda Kamyarın üç, özünün isə iyirmi yaşı vardı. O, 1951-ci ilin baharında on altı yaşında ikən böyük fədakarlıqlara, min bir zillətə qatlanaraq, psixoloji sarsıntılara məruz qalaraq qurduğu ailə həyatını dörd il sonra, ömrünün iyirminci baharında ani olaraq itirdi. Təbiətin baharında qapını döyən qəfil eşq ömrün baharında gözüyaşlı onu tərk etdi.

Foruğun Pərviz Şapurdan ayrılması ona çox böyük təsir edərək ömrünün sonuna qədər sağalmayacaq ağır yaralar vurdu. Bu ayrılıqdan sonra, sanki, həmişə bitib-tükənmək bilməyən arzuların sorağında olan bir gəncin mənəvi aləminə birdən-birə qəm-ələm, o nikbin, sevdalı gözlərinə isə zülmət və qaranlıq çökür. Öz fikir və düşüncələri ilə əlbəyaxa olan, çaşqın vəziyyətə düşmüş Foruğ Fərruxzad yoldaşından rəsmi surətdə boşandıqdan sonra oğlu Kamyarla yenə də ata evinə pənah gətirir. Onun ata evinə qayıdışı həmişəki kimi xoş qarşılanmır. O, həmin evdə rahatlıq, hüzur tapa bilmir. Əsəblərinin pozulduğundan və tez-tez yaranan baş ağrılardan şikayətləndiyindən bir müddət xəstəxanada müalicə olunur.

Foruğ maddi ehtiyaclarını özü ödəmək üçün iş axtarmağa başlayır. Tehranda iki-üç yerdə iş tapır. "Həya" film dublaj şirkətindən iki iş təklifi alır, amma nədənsə oraya getmir. Bir müddət Planlaşdırma İdarəsinin kitabxanasında çalışır. Yalnız olduğu zaman psixologiyaya dair kitablar oxuyur, müxtəlif ədəbi-bədii əsərlər mütaliə edir, daha çox şeir yazırdı. Asudə vaxtlarında isə fikrini dağıtmaq üçün teatra gedir, saatlarla açıq havada dolaşaraq, ətraf aləmi seyr edirdi. Ancaq bunlar da pərişan qadını ovundurmur, onun gərgin əsəblərinə, sərgərdan və divanə ruhuna rahatlıq vermirdi.

Mənəvi cəhətdən sarsılmış Foruğ bir müddət onu məngənə təkin sıxan cəmiyyətdən, hər bir işdə günahkar bilib qınaq hədəfinə çevirən insanlardan, daim ona iztirab verən keçmişindən uzaqlaşmaq qərarına gəlir. Yaxınları bunu eşitdikdə onu ələ salıb məsxərəyə qoyur, hətta, qınayırdılar belə. Onlar biçarə qadının başqa niyyətdə olduğunu düşünürdülər. O, isə əksinə, xoşbəxtliyin və səadətin arxasınca qaçmırdı. Özgə məmləkətlərdə macəra dolu, nəşəli bir həyat eşqi ilə vurnuxmurdu. Foruğ sadəcə olaraq, ümidsizliyin və qərq olduğu yasın pəncəsindən xilas olmağa çalışırdı. Bu yolda isə ona yeganə maneə ilk eşqinin yadigarı doğma övladı Kamyar idi. Hər an onun xoşbəxt gələcəyi barədə düşünən gənc anaya dörd yaşlı körpəsini gözüyaşlı digər insanların ümidinə qoyub getmək ar gəlirdi. Bu ayrılıq ona nə qədər çətin və ağır olsa da, körpəsinin parlaq gələcəyi, ona bir daha dönə bilmək naminə həmin addımı atmağa

məhkum idi. O inanırdı ki, daxilindəki təşviş və həyəcanı ram etdikdən, "asi və sərgərdan ruhu" rahatlığa qovuşduqdan sonra doğma övladı ilə bir daha ayrılıq məfhumunu dilə gətirmədən, əbədi olaraq xoşbəxt yaşayacaq. Buna görə tezliklə həmin şirinliyi dadmaq üçün hicranın acısına dözməyi üstün tutur.

1956-cı ilin iyun ayında Foruğ Fərruxzad ali təhsil almaq məqsədilə (əslində, məlum səbəblərə görə, bu bir bəhanə idi!) İtaliyaya səfər edir. Foruğ Romada Via caldezini № 25/2 ünvanında bir vaxtlar incəsənət məktəbində bir yerdə təhsil aldığı rəfiqəsigildə qalır. O, universitetə sənəd qəbuluna gecikmişdi. Yay olduğu üçün şəhərin bütün təhsil müəssisələri tətilə buraxılmışdı. Foruğ orada üç ay yayı italyan dilini öyrənir. Bundan əlavə o, Tehrana qayıtdıqdan sonra asan iş tapa bilmək üçün Romada müasir seramik (kaşı qab və kafel istehsalı) istehsalını və parça üzərində nəqqaşlıq sənətini öyrənmək qərarına gəlir. O, hər gün şəhərə tamaşa etməyə çıxır, bir-bir Romanın tarixi yerlərini və muzeylərini gəzirdi.

Qeyd edək ki, Foruğ Fərruxzad İtaliyada qaldığı bir il ərzində Tehranla əlaqəsini kəsmir, tez-tez öz ailəsinə, Pərviz Şapura məktub yazır, onların vəziyyəti ilə maraqlanırdı. O, cismən ata yurdundan ayrılsa da, ruhən oradan qopa bilməmişdi. Ən başlıcası isə o, burada müəyyən qədər hüzur tapıb sakitləşə bilmişdi. Burada da heç kiminlə ünsiyyət saxlamır, xəlvətə çəkilərək kitab oxuyur, məqalə və şeir yazmaqla məşğul olurdu. Foruğ yazdığı çoxlu sayda müxtəlif məqalələri çap olunmaq üçün Tehran jurnallarına göndərməyi düşünsə də, maddi imkanı buna əl vermirdi. Maddi ehtiyac içərisində olan qadın burada film dublyajı üçün bir kino şirkəti tərəfindən iş dəvəti aldıqda sevinir. Ancaq mühiti çirkin görüb həmin təklifi rədd edir.

Foruğ Fərruxzad İtaliya səfərindən sonra qısa müddətə Almaniyaya səfər edir. 1956-cı ildə onun "Divar" adlı ikinci şeir toplusu çap olunur. 1957-ci ilin avqustunda Avropa səfərindən Tehrana qayıdır. Uzun ayrılıqdan sonra oğlu Kamyarı görmək istədikdə, buna nail ola bilmir. Ona öz doğma övladı ilə görüşməyi qadağan edirlər. Foruğ yeganə ümidi olan övladını nəinki bəsləməkdən, hətta, görmək ixtiyarından belə məhrum edilir. Onu övladının nəzərində çirkin və bədzat bir varlıq kimi cilvələndirmişdilər. Bu səbəbdən Kamyar da anasını görməkdən imtina edirdi. Bu, həyatda xoşbəxtlik məfhumu ilə yalnız kağızlar üzərində rastlaşan bir şəxsə, Foruğa vurulan ikinci ağır zərbə oldu. Həmin hadisədən sonra onun incik ruhunu yenidən dəhşət bürüdü, mənəvi aləminə, intizarlı gözlərinə niskil çökdü. O, bir daha taleyin və ictimai qanunların sərt rəftarı ilə barışmaq məcburiyyətində qaldı. Bu dərdi yalnız qələmə aldığı şeirlərin dili ilə anlada bildi. Gənc bir ananın övlad həsrəti onun bir sıra şeirlərinin baş mövzusuna çevrildi. Son ümid çırağı sönmüş Foruğ Fərruxzad ömrünün sonuna qədər arzusu gözündə qalmış nakam bir gənc, gözləri yollara dikilmiş həsrətli bir ana və həyatın bütün aldanışlarını sinirə bilən tənha bir qadın olaraq qaldı.

1958-ci ildə şairənin sayca üçüncü kitabı "Üsyan" işıq üzü gördü. 1959-cu ilin sentyabr ayında Foruğ Fərruxzadın həyatında yeni bir mərhələ başlandı.

O, həmin ildə yazıçı, kino-ssenarist İbrahim Gülüstanla tanış oldu və onun rəhbərlik etdiyi "Gülüstan film" studiyasında kino fəaliyyətinə başladı. İ.Gülüstanla tanışlıq Foruğun qarşısında yeni üfüqlər açmaqla yanaşı, onun ədəbi-bədii görüşlərinin və düşüncə tərzinin dəyişməsinə də böyük təsir göstərmiş oldu. O, "Gülüstan film" şirkətində aktyor, rejissor yardımçısı, rejissor vəzifələrində çalışır, bir sıra filmlərin səsləndirilməsində iştirak edir. 1963-cü ildə onun dördüncü şeir məcmuəsi "Yeni təvəllüd" nəşr olunur. 1964-cü ildə gəmi ilə Almaniya, İtaliya, Fransa və İsveçrəyə səyahət edir.

1966-cı ildə Foruğ Fərruxzad Pezaronun rəhbərliyi ilə keçirilən "Sinema d'auteur" ikinci kino festivalında iştirak etmək üçün İtaliyaya səfər edir. Həmin ərəfədə o, İsveçrədə film istehsal etmək üçün oraya dəvət məktubu alır. Bundan əlavə, Foruğ Almaniya, İsveçrə, Britaniya və Fransada əsərlərinin tərcümə və nəşr olunması barədə bir neçə təklif alır və buna razılıq verir.

Sənət kahkəşanının ənginliklərinə baş vurmuş Foruğ Fərruxzadın ədəbi və mədəni sahədəki müvəffəqiyyətləri tezliklə ictimaiyyətin diqqətini özünə cəlb edir. Hələ sağlığında ikən, 1966-cı ildə onun təzadlarla dolu həyatından biri Yunesko təşkilatının dəstəyi ilə yarımsaatlıq, digəri isə italiyalı rejissor Bernardo Bertoloçi tərəfindən on beş dəqiqəlik iki film çəkilir.

Həmişə yaşamaq, yazıb-yaratmaq eşqi ilə çağlayan Foruğ Fərruxzad çox gənc, ömrünün çiçəklənən otuz ikinci baharında, onu həm güldürən, həm də ağladan, fanilik̇lə süslənmiş həyatla vidalaşdı. 1967-ci il fevralın 14-ü, həftənin bazar ertəsi, saat 16:30-da "səslərin ən sonuncu səsi" eşidildi. O gün Foruğ bir avtomobil qəzası nəticəsində faciəvi şəkildə əbədiyyətə qovuşdu. Çərşənbə günü, saat 11:45-də Tehrandan şimalda Şəmiranın "Zəhirüddövlə" məzarlığında ağ qar dənələri altında torpağa tapşırıldı. Həmin gün onun son arzusu da çin oldu. Çünki bir vaxtlar Əhvazın onu həqiqi qışı görməkdən məhrum etməsindən gileylənən Foruğ qayıtmış bəxti kimi kor-peşiman Tehrana qayıtdıqda, böyük həsrətlə pəncərə arxasından yağan qara tamaşa edərək, bir məktubunda Pərviz Şapura yazırdı: "Kaş bu qar mənim məzarım üstünə yağardı" (6, 262). Elə fevralın 16-sı Tehrana tənbəl-tənbəl qar yağırdı. Foruğun məzarı üstə gül dəstəsi göndərən ilk şəxs onu çox sevən şahın xanımı Fərəh Pəhləvi idi. Elə şairənin Tehranın Zəhirüddövlə məzarlığında dəfn olunması da bilavasitə onun göstərişi ilə həyata keçirilmişdi. Ömrü boyunca sadiq qaldığı Pərviz Şapur isə Foruğun son istəyinin gerçəkləşməsinin şahidi belə olmadı. O, jurnalistlərin təqibindən sevdiyi və ayrıldıqdan sonra belə sağlamlığı üçün dualar etdiyi "Foruğu"nun dəfn mərasiminə qatılmadı və bir ay qeybə çəkildi.

Həmən gün Foruğ Fərruxzad öz susmuş vücudu ilə qarlı və buzlu torpağa yeni bir nəfəs, istilik bəxş etdi. 1935-ci ilin qışında Tehranda doğan al şəfəqli günəş 1967-ci ilin qışında elə oradaca vaxtsız qürub etdi. Foruğ Fərruxzad sadə, şərəfli və mənalı bir ömür sürdü. Öz sadəliyi, fitri istedadı, bacarığı və işgüzarlığı ilə sənətin zirvələrini fəth edə bildi. Yalnız həmişə maddi cəhətdən çətinlik çəkmişdi. Həftələrlə ağır xəstələnər, həkim və dərman pulu da tapmazdı. Qışda sobasının közü hər ayın ortasında neftin az olmasından və ya

pulsuzluqdan sönərdi. Öz maddi ehtiyaclarını qarşılamaq əvəzinə şairlikdən, kino işindən... qazandığı pulu kimsəsiz uşaqlara, kasıb insanlara, hallarına acıdığı cüzamlı xəstələrə, övladlığa qəbul etdiyi Hüseynə sərf edərdi. Daim mənəviyyata önəm verdiyindən, maddiyyat barədə düşünməyi heç ağlına belə gətirmirdi. Həyata, onun bəzəyi olan insanlara böyük məhəbbət və hörmət bəsləyirdi, başqalarının qəm yükünü isə çiyinlərində daşımağa alışmışdı. Ən başlıcası isə o, ədəbi-mədəni sahədəki uğurları və öz mənəvi məziyyətləri ilə adını əbədiyyətə həkk edə bilmişdi.

## ƏDƏBİYYAT


1. Hüseynov B. XX əsr fars şerində ənənə və novatorluq. Bakı: Elm, 1975, 340 s.
2. Məhəmmədi M. Tədqiqlər və tərcümələr. Bakı: Nafta-Press, 2004, 222 s.
3. Məmmədzadə C.N. Foruğ Fərruxzadın kino yaradıcılığı // "Azərbaycan Şərqşünaslığı" elmi-kütləvi jurnalı (AMEA), 2010, № 1(3), s. 25-29.
4. Məmmədzadə C.N. Foruğ Fərruxzadın "Əsir" məcmuəsi // İran filologiyası məsələləri, 2010, № 1, s. 284-316.
5. Məmmədzadə C.N. Foruğ Fərruxzadı Purandan sordum // "Azərbaycan Şərqşünaslığı" elmi-kütləvi jurnalı (AMEA), 2011, № 01 (5), s. 20-23.
6.
7.
8.
9.
10.
11.
12.
13. История персидской литературы XIX - XX веков. М.: Восточная литература «РАН», 1999, 535 с.
14. Кляшторина В.Б. «Новая поэзия» в Иране. М.: Наука, 1975, 256 с.


## ЖИЗНЕННЫЙ ПУТЬ ФОРУГА ФАРРУХЗАД


**Дж.Н.МАМЕДЗАДЕ**


## РЕЗЮМЕ


Одна из выдающихся личностей современной персидской литературы Форуг Фаррухзад (1935-1967) родилась в Тегеране, в семье военнослужащего. Начальное образование получила в школе «Соруш», а среднее образование в школе «Хосров-е хавер». В 1951 году получила образование по шитью и художеству в училище «Кямалюльмюльк». Начиная с 1950 года начала активно заниматься литературной деятельностью и с 1959 года работала на должностях актрисы, помощника режиссёра и режиссёра в компании

«Гюлюстан фильм», участвовала в озвучивании ряда фильмов. Совершала деловые поездки в Англию, Германию, Италию, во Францию и Швейцарию. Форуг, которая владела французским, английским, немецким и итальянским языками, сумела показать свой талант и в области перевода тоже.

**Ключевые слова:** семья, образование, стихотворение, кино, Европа

## FOROUGH FARROKHZAD'S LIFE

J.N.MAMMADZADEH

## SUMMARY

The most famous figure of the modern Persian literature Forough Farrokhzad (1935-1967) was born in Tehran in a military family. She received primary education at "Sorush", and secondary education at "Khosro Khavar" schools. She attended "Kamalulmulk" school of fine arts to study painting and tailoring in 1951. From the 1950s she began to be engaged with professional literary activity and from 1959 worked as actor, assistant - producer and producer in the "Golestan film" company and took part in the sounding of a few films. She made business trips to England, Germany, Italy, France and Switzerland. Forough's knowledge of French, English, German and Italian languages helped her demonstrate talent as a translator as well.

**Key words:** family, education, poem, cinema, Europe